**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XIX ƏSR AZƏRBAYCAN ANADİLLİ MƏSNƏVİLƏRİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Əfsanə Şəmsəddin qızı İsmayılova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Sumqayıt – 2025**

Dissertasiya işi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Şərq ölkələri türkdilli əlyazmaların tədqiqi şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | Filologiya elmləri doktoru, dosent<br>**Paşa Əli oğlu Kərimov** |
| **Rəsmi opponentlər:** | Filologiya elmləri doktoru, professor<br>**Rafiq Yusif oğlu Əliyev** |
| | Filologiya elmləri doktoru, dosent<br>**Mərziyyə Allahyar qızı Nəcəfova** |
| | Filologiya elmləri doktoru, dosent<br>**Əzizağa Bayram oğlu Nəcəfov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Sumqayıt Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.24 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | Filologiya elmləri doktoru, dosent<br>**Nigar Vəliş qızı İsgəndərova** |
| Dissertasiya şurasının elmi katibi: | Filologiya üzrə fəlsəfə doktoru<br>**Mətanət Hidayət qızı Məhərrəmova** |
| Elmi seminarın sədri: | Filologiya elmləri doktoru, dosent<br>**Arzu Hüseyn qızı Hüseynova** |

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XIX əsr Azərbaycan ədəbiyyatı tarixinin ziddiyyətli, eyni zamanda mövzu, janr və məzmun etibarilə zəngin dövrüdür. Bu dövrün ədəbiyyatı ilə bağlı kompleks elmi araşdırmalar aparılmış, xeyli sayda monoqrafik əsərlər yazılmışdır. Buna baxmayaraq, XIX yüzilliyin anadilli poeziyasına müstəqillik dövrünün ədəbi-nəzəri müstəvisində yenidən obyektiv baxışa hələ də ehtiyac duyulmaqdadır.

XIX əsrin ilk yarısında yaranmış ədəbi nümunələrdə klassik Şərq poetik ənənələri daha çox müşahidə olunsa da, bu əsərlərin mövzu və süjet xəttinə dövrün ictimai-siyasi və sosial-mədəni hadisələri də bilavasitə öz təsirini göstərmişdir. XIX əsr poeziyasının mövzu və janr problematikasına xronoloji ekskurs etsək, dövrün ictimai-mədəni hadisələri fonunda klassik ədəbiyyatın qədim forma vahidi olan məsnəvinin geniş arealda rəvac tapmasının şahidi olarıq.

XIX əsrin tarixi-siyasi hadisələri nəticəsində ikiyə bölünmüş Azərbaycanın hər iki hissəsində ədəbiyyatda bəşəri və humanist meyillər, vətənpərvərlik duyğuları, xəlqi kolorit və s. cəhətlər öz əksini tapmış, meydana gələn məsnəvilərin mövzu, ideya və məzmun xüsusiyyətlərində ciddi fərqlər də meydana çıxmışdır. Şimali Azərbaycanda baş verən siyasi və ədəbi-mədəni hadisələr hər iki ədəbiyyata öz təsirini göstərmiş, dövrün ədəbi prosesində bütün istiqamət və janrlar üzrə anadilli ədəbiyyat başlıca rol oynamışdır. Bu baxımdan dissertasiyanın əsas mövzu predmeti olan XIX əsr Azərbaycan ədəbiyyatının anadilli məsnəvilərinin sistemli şəkildə təsnif və təhlil edilməsi tədqiqat işinin aktuallığını şərtləndirmişdir.

Dissertasiyanın aktuallığını aşağıdakı digər konkret amillərlə izah etmək olar:

- XIX əsrin məsnəviləri bədii forma kimi zamanın ideya-estetik tələblərinə cavab verir. Hekayə, poema, təmsil və digər janrlar məsnəvi şeir şəklinin geniş arealda vüsət tapmasını və XIX əsrin Azərbaycan ədəbiyyatında ən məhsuldar ədəbi mərhələ olmasını bariz şəkildə isbat edir;

- İslam mentaliteti, Azərbaycan xalqının milli-mənəvi dəyərləri XIX əsrin anadilli məsnəvilərində də öz əksini tapmışdır. Məlumdur ki, mərsiyə janrı uzun müddət ədəbiyyatşünaslıq elminin tədqiqat obyektindən kənarda qalmışdır. Halbuki, bir sıra sənətkarların ədəbi irsinin dərindən öyrənilməsi onların mərsiyə şeirlərinin araşdırılmasına zərurət yaradır;

- XIX əsrin anadilli məsnəvilərində bir sıra tarixi-siyasi faktlarla yanaşı, daim Azərbaycan torpağının maddi-mənəvi sərvətlərinə göz dikən, çirkin niyyətlərini həyata keçirmək üçün hər vasitəyə əl atan ermənilərin əsl simasının təsvirinə də rast gəlinir. Bu baxımdan həmin şeirlərin tədqiqi müasir aktual məsələ kimi diqqəti cəlb edir.

Ədəbiyyatşünaslığımızda XIX əsr Azərbaycan poeziyası ilə bağlı çoxlu sayda elmi əsərlər yazılmışdır. K.Məmmədovun "Qasım bəy Zakir" [1], K.Mirbağırovun "Seyid Əzim Şirvani"[2], M.Müsəddiqin "Şükuhi: Həyat və yaradıcılığı"[3], K.Adışirinovun "İsmayıl bəy Nakam: həyatı və bədii yaradıcılığı" [4] və s. monoqrafiyalarda bu şairlərin yaradıcılıqları təhlil edilərkən onların məsnəvilərindən də müəyyən dərəcədə bəhs olunmuşdur. Lakin Azərbaycan ədəbiyyatşünaslığında indiyə qədər məsnəvi haqqında geniş və ayrıca tədqiqat əsəri yazılmamışdır. Bu baxımdan XIX əsr anadilli məsnəvilərinin mövzu və janr xüsusiyyətlərinin sistemli təsnifatla təhlilə cəlb olunması müasir ədəbiyyatşünaslıq elmi qarşısında müəyyən zərurət doğurmuşdur. XIX əsr Azərbaycan poeziyasına, onun ayrı-ayrı nümayəndələrinin yaradıcılıqlarına həsr olunmuş monoqrafiyalar, oçerk və elmi əsərlər məsnəvinin tədqiqinin bir

---

[1] Məmmədov, K.D. Qasım bəy Zakir / K.D.Məmmədov. – Bakı: Gənclik, – 1984. – 230 s.

[2] Mirbağırov, K. Seyid Əzim Şirvani / K.Mirbağırov. – Bakı: Uşaqgəncnəşr, – 1959. – 235 s.

[3] Müsəddiq, M.H. Mirzə Mehdi Şükuhi: Həyat və yaradıcılığı / M.H.Müsəddiq. – Bakı: Yazıçı, s.73

[4] Adışirinov, K.F. XX əsr Şəki ədəbi-mədəni mühiti (1900-2000-ci illər). [Monoqrafiya]/I kitab. K.Adışirinov. – Bakı: Elm və təhsil,– 2015. – 485 s.

hissəsi hesab edilə bilər. Mövzunun işlənilmə dərəcəsindən bəhs edərkən XIX əsrin epik şeiri haqqında yazılmış dissertasiyaların da əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. XIX əsrin anadilli məsnəvilərinin tədqiqi tarixi və müasir ədəbiyyatşünaslıqda işlənmə dərəcəsi dissertasiyada bir paraqraf həcmində öz əksini tapmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Araşdırmanın obyekti XIX əsrin Azərbaycan poeziyasıdır. Dövrün məsnəvi şeir şəklində yazılmış bütün anadilli şeir nümunələri isə tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi məsnəvinin səciyyəvi cəhətlərini, inkişaf dinamikasını, mövzu və janr xüsusiyyətlərini, XIX əsr Azərbaycan ədəbiyyatının klassik janrları arasında mövqeyini müəyyənləşdirməkdən ibarətdir. Tədqiqat zamanı aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- Azərbaycan poeziyasının janrlar iyerarxiyasında məsnəvinin işlənmə mövqeyini müəyyənləşdirmək, seçilmiş konkret nümunələr əsasında məsnəvinin özünəməxsus xüsusiyyətlərini araşdırmaq;
- XIX əsr Azərbaycan ədəbiyyatında qoşa qafiyələnən bütün poetik mətnlərin - poema, mənzum məktub, hekayə, təmsil, nəsihətnamə, bahariyyə, mərsiyə və s. əsas məzmun və ideya istiqamətlərini, bu əsərlərin folklor və klassik qaynaqlarını müəyyənləşdirmək;
- XIX əsrin anadilli məsnəvilərinin Şimali və Cənubi Azərbaycan ədəbiyyatı üzrə sistemli təsnifatını tərtib etmək, onların oxşar və fərqli xüsusiyyətlərini araşdırmaq;
- Mövcud material və tədqiqatların köməyi ilə XIX əsr məsnəvilərini dövrün ictimai-siyasi mühiti kontekstində təhlil etmək, onların əsas məzmun və ideya istiqamətlərini müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqat işində dövrün anadilli məsnəviləri sistemli şəkildə araşdırılmış, müəyyən fakt və və bədii mətnlərə tarixilik prinsipindən yanaşılmışdır. Araşdırma zamanı əsas nəzəri mənbə kimi XIX əsr Azərbaycan epik poeziyasının problemlərinə dair tədqiqatlara istinad edilmiş, həmçinin analitik, tarixi-müqayisəli, bioqrafik metodlardan istifadə edilmişdir. Dissertasiyada tarixi-müqayisəli təhlil zəminində problemə kompleks

şəkildə olmaqla fərdi yanaşma, tarixi-tipoloji, təsnifat və qarşılaşdırma üsullarından, çağdaş ədəbiyyatşünaslığın əsaslandığı nəzəri-metodoloji müddəa və təcrübədən də istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** "XIX əsr Azərbaycan anadilli məsnəviləri" mövzusunu tədqiq etmək üçün müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- XIX əsrin anadilli məsnəvilərinin klassik üslubla sıx vəhdəti, Şərq ədəbi ənənələrini davam və inkişaf etdirməsi, bu əsərlərlə klassik məsnəviləri müqayisə etmək imkanını yaradır;
- XIX əsr ədəbiyyatında klassik məsnəviçilik ənənələrinin davam etdirilməsi ilə bərabər, yeni yaranan ədəbi təmayüllər də məsnəvilərin mövzusuna ciddi təsir göstərmiş, orijinal məzmunlu epik və süjetli şeirlərin meydana çıxmasına səbəb olmuşdur;
- XIX əsrin son yarısında anadilli ədəbiyyatda məsnəvi əsasən bədii forma kimi öz aktuallığını qoruyub saxlamış, mövzu, məzmun və süjet xəttində müəyyən fərqlərin təzahürünə baxmayaraq, quruluşca deformasiyaya uğramamış, həcmi isə yığcamlaşmışdır;
- Məsnəvi insanın mənəvi dünyasını zənginləşdirən humanist ideyaları və bəşəri hissləri hərtərəfli ifadə edən ən ideal poetik qəlib kimi xüsusi dominantlığa malikdir;
- XIX əsrdə əsasən dərsliklər üçün yazılmış məsnəvilər multikultural ədəbi mühit çərçivəsində milli-mənəvi dəyərləri, əxlaqi-didaktik, bəşəri və humanist ideyaları ehtiva etməklə, anadilli epik poeziyanın inkişafında mühüm rol oynamışdır;
- Məsnəvinin Azərbaycan ədəbiyyatşünaslığında uzun müddət tədqiqatlardan kənarda qalmış mərsiyə ədəbiyyatı üçün işlək forma olması onların geniş şəkildə araşdırılmasına zərurət yaradır;
- Bəzi məsnəvilərdə müşahidə olunan dini-fəlsəfi fikirlər mövhumatdan uzaq olub, mütərəqqi ideyaları təbliğ edir və bu gün də öz müasirliyini saxlamaqdadır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya XIX əsrdə məsnəvi şəklində yazılmış poema, təmsil, mənzum hekayə, mərsiyə və s. janrlarda yazılmış şeirlərin geniş və sistemli tədqiqinə həsr olunmuş ilk elmi əsərdir.

- Tədqiqat zamanı ədəbiyyatşünaslığımızda bədii irsi tədqiq edilməmiş və ya az araşdırılmış bir sıra şairlərin (M.X.Aciz, M.Hidəci, H.Qaradaği və b.) məsnəviləri ilk dəfə elmi-nəzəri müstəvidə nəzərdən keçirilərək onların mövzu, və janr xüsusiyyətləri ətraflı təhlil edilmişdir;

- AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun alimləri tərəfindən şeirləri ilk dəfə kitab halında təqdim edilən M.B.Nadim, M.Məmai, M.Q.Zakir, F.H.Gəncəvi və başqa şairlərin məsnəviləri barədə aparılmış tədqiqat və təhlilləri Azərbaycan ədəbiyyatşünaslığında elmi yenilik hesab etmək mümkündür;

- Dissertasiyada 30-a yaxın müəllifin yaradıcılığı araşdırılmış, onların anadilli məsnəviləri seçilərək müəyyən təsnifatla tədqiqata cəlb edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya işindən aşağıdakı tətbiq sahələrində istifadə oluna bilər:

- Azərbaycan klassik ədəbiyyatı ilə bağlı olan sahələrdə;
- Məsnəviləri təhlilə cəlb olunmuş sənətkarların bədii irsinin öyrənilməsində;
- Elmi - pedaqoji fəaliyyətdə, ali məktəblərdə Azərbaycan ədəbiyyatı tarixi (XIX əsr) fənninin tədrisində.

**Aprobasiyası və tətbiqi**. Tədqiqatın əsas məzmunu, dissertasiyada əldə edilən elmi nəticələr Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, iddiaçının müxtəlif xarici ölkələrdə keçirilmiş beynəlxalq simpozium və respublika konfranslarındakı çıxış və məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Şərq ölkələri türkdilli əlyazmaların tədqiqi şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya Azərbaycan Respublikasının Prezidenti

yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya işi giriş (7 səhifə, 12084 şərti işarə), 3 fəsil (birinci fəsil iki paraqraf olmaqla, 28 səhifə, 54157 şərti işarə; ikinci fəsil üç paraqraf olmaqla, 70 səhifə, 117903 şərti işarə; üçüncü fəsil üç paraqraf olmaqla 43 səhifə, 71727 şərti işarə), nəticə (4 səhifə, 7198 şərti işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 265099 şərti işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Dissertasiyanın **"Azərbaycan ədəbiyyatı tarixində məsnəvi və onun inkişaf istiqamətləri"** adlanan birinci fəsli iki paraqrafa ayrılır. Birinci paraqraf **"Məsnəvinin ədəbi forma kimi təşəkkülü və inkişaf dinamikası"** adlanır. Burada məsnəvi şeirinin qaynaqlarından, təşəkkül tarixindən və keçdiyi inkişaf yolundan bəhs olunur.

Məlumdur ki, dünya xalqları mədəniyyətinin əsas tərkib hissəsi olan bədii söz sənəti yüzillər boyu bir-birindən bəhrələnmiş, bədii nümunələr və ədəbi əlaqələr vasitəsilə inkişaf edərək zənginləşmişdir. Qədim dövrdə Yaxın və Orta Şərqdə fars dilinin vahid poeziya dili olması, epik şeir nümunələrinin süjet, mövzu və ideya bənzərliyi ədəbi bəhrələnmənin əsas şərtlərindən biri olmuşdur.

İran ədəbiyyatında yaranmış, Şərq şairlərinin sıx müraciət etdiyi ortaq nəzm şəkillərindən biri də məsnəvidir.

Məsnəvinin inkişaf dinamikasını əks etdirən bu paraqrafdan bəlli olur ki, əksər nəzirəçilərin sələfi olan Nizaminin "Xəmsə"si

Yaxın və Orta Şərq ədəbiyyatında məsnəvinin inkişafını nəinki əsrlər boyu istiqamətləndirmiş, o cümlədən, özündən sonra Azərbaycan ədəbiyyatında 7 əsrə yaxın bir müddətdə məsnəvinin yayılmasında əsas zəncir rolunu oynamışdır. Zəif və ya mükəmməl olmasından asılı olmayaraq yaranmış bu əsərlərin hər biri müəyyən əhəmiyyətə malik olub məsnəvinin sonrakı inkişafına təsirsiz ötüşməmişdir.

XIX əsrdə də bu inkişafın davamı olaraq, yeni mövzu və ideyaya malik məsnəvilər meydana gələrək, geniş arealda vüsət tapmışdır.

Fəslin ikinci paraqrafı **"Azərbaycan ədəbiyyatşünaslığında məsnəvilərin tədqiqi tarixi"** adlanır. Məlumdur ki, məsnəvi haqqında ilkin təhlillərə hələ qədim və orta əsrlərdə yaranmış bir sıra təzkirələrdə rast gəlirik. Müasir dövr mənbələrinə gəldikdə isə Ə.Səfərlinin "XVII-XVIII əsrlər Azərbaycan epik şeiri"[5], Q.Cahaninin "Azərbaycan ədəbiyyatında Nizami ənənələri"[6], A.Rüstəmovanın "Azərbaycan epik şeirinin inkişaf yolları" (XII-XVII əsrlər)[7] və s. monoqrafiyaların, Azərbaycan EA-nın 6 cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin yüzlərlə əlyazma, cüng və təzkirələr əsasında tərtib edilmiş II və III cildlərini nümunə gətirmək mümkündür ki, bu mənbələrdə müxtəlif dövrlərin məsnəviləri haqqında ətraflı təhlil və tədqiqlər aparılmışdır.

XIX əsr anadilli məsnəvilərinin tədqiqində F.Qasımzadənin "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi", K.Məmmədovun "XIX əsr Azərbaycan şeirində satira", M.Mustafayevin "XIX əsr Azərbaycan realist şeiri" [8], N.Qarayevin "XIX əsr ədəbi məclisləri", Y.Qarayevin "Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər", Y.Piriyevin "XIX əsr

---

[5] Səfərli, Ə.Q. XVII-XVIII əsrlər Azərbaycan epik şeiri / Ə.Səfərli. – Bakı: Yazıçı, – 1982. – 206 s.

[6] Cahani, Q.H. Azərbaycan ədəbiyyatında Nizami ənənələri.– Bakı: Elm, – 1979.– 203 s.

[7] Rüstəmova, A.C. Seçilmiş əsərləri [iki cilddə]: Azərbaycan epik şeirinin inkişaf yolları (XII-XVII əsrlər) / A.Rüstəmova, tərt. ed. F.Əzizova. – Bakı: Elm, c.1. – 2014. – 716 s.

[8] Mustafayev, M.Q. XIX əsr Azərbaycan realist şeiri / M.Q.Mustafayev. – Bakı: ADPU-nun mətbəəsi, – 1991. – 102 s.

Azərbaycan ədəbiyyatında poema janrı" əsərləri və s. mənbələr mühüm yer tutur.

Cənubi Azərbaycan ədəbiyyatının anadilli məsnəviləri ilə bağlı tədqiqatlardan Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun iki cildlik "Cənubi Azərbaycan ədəbiyyatı tarixi", M.Şahalıyevanın "Cənubi Azərbaycan poeziyasının inkişaf problemləri", P.Məmmədlinin "Cənubi Azərbaycan ədəbiyyatı məsələləri", M.Müsəddiqin "Mirzə Mehdi Şükuhi: Həyat və yaradıcılığı", S.Hüseynin "Azərbaycan mərsiyə ədəbiyyatı və Əbülhəsən Racinin poetik dünyası" və s. əsərlərin adlarını çəkmək olar. Bir sıra cənub şairlərinin divanlarının tərtib olunmasında Hüseyn Sədiq Məhəmmədzadənin, Əli Rza Oqtayın və Əziz Möhsüninin xidmətləri xüsusi vurğulanmalıdır.

XIX əsr məsnəvilərinin tədqiqində AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun mühüm fəaliyyəti olmuşdur. P.Kərimov 1988-ci ildə T.Nurəliyeva ilə bərabər M.İ.Qasirin, 2020-ci ildə R.Kərimovla birgə M.B.Nadimin [9] və M.Q.Zakirin[10], 2021-ci ildə H.R.Şeyxzamanlı ilə bərabər Fəthəli bəy Hali Gəncəvinin şeirlərini nəşr etdirmişdir[11]. R.Kərimovun "Fələyin bir belə dövrü olacaqmış..."[12], X.Yusifovanın "Mirzə Mehdi Şükuhi. Divan", S.Cabbarlının "Məmo bəy Məmai. Şeirləri" və s. nəşrlərdə bu şairlərin anadilli məsnəviləri ilk dəfə öz əksini tapmışdır.

Məsnəvi şeiri Türkiyə alimlərinin də diqqət mərkəzində olmuşdur. Prof.Dr.Amil Çelebioğlunun "Türk mesnevi edebiyatı", Agah Sirri Levend "Arap, fars ve türk edebiyatlarında "Leyla ve Mecnun" hikayesi" fikrimizə nümunə ola bilər. Azmi Bilgin 2011-ci

---

[9] Nadim, M.B. Seçilmiş əsərləri: [iki cilddə]. / M.B.Nadim, tərt. edənlər: P.Kərimov, R.Kərimov. – Bakı: Alatoran, c. 1.– 2018. – 250 s.

[10] Molla Qasım Zakir / tərt.edənlər: P.Ə.Kərimov, R.Ş.Kərimov. – Bakı: Elm və təhsil, – 2020. – 94 s.

[11]Gəncəvi F.H. Şeirlər / F.H.Gəncəvi, tərt. edənlər: P.Kərimov, H.R.Şeyxzamanlı. – Gəncə: Elm nəşriyyatı, – 2021, – 94 s.

[12] Qaradağski (Qaradaği), H.A. Fələyin bir belə dövrü olacaqmış / H.A.Qaradağski (Qaradaği), tərt. ed. R.Kərimov. – Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, – 2003. – 280 s.

ildə Türkiyədə Nigarinin divanını çap etdirərək, onun məsnəviləri haqqında şərhlər vermiş, buradakı sufi anlamları təhlilə cəlb etmişdir.

Beləliklə, XIX əsr Azərbaycan ədəbiyyatının anadilli məsnəvilərinin tədqiqi tarixini araşdırarkən Azərbaycanda, eləcə də Türkiyədə yazılmış elmi ədəbiyyatlar nəzərdən keçirilmiş, onlardan dissertasiyanın bir paraqrafı həcmində bəhs edilmişdir.

Dissertasiyanın ikinci fəsli **"XIX əsr Şimali Azərbaycan ədəbiyyatında anadilli məsnəvilərın mövzu və janr xüsusiyyətləri"** adlanır və üç paraqrafa bölünür. İlk paraqraf **"XIX əsrin ədəbi mənzərəsində realist satirik üslub və təmsil məsnəvilər"** adlanır.

XIX əsrin əvvəllərində mövcud ictimai hadisələr, siyasi ziddiyyətlər, qlobal problemlər və cəmiyyətdəki eybəcərliklər bir sıra ziyalıların tənqidinə tuş gələrək satirik əsərlərin meydana çıxmasına səbəb oldu və ədəbiyyatda ictimai-siyasi motivlər, realist satira yaranıb inkişaf etməyə başladı. Beləliklə, Ə.Xaqani, N.Gəncəvi, M.Füzuli yaradıcılığındakı satirik lövhələr M.B.Nadim, B.Şakir, Q.Zakir və b. tərəfindən inkişaf etdirilərək "satira" adlı müstəqil bir istiqamətə çevrildi. Görkəmli satiriklərin məsnəviləri arasında cəmiyyətdəki nöqsanların tənqidi ilə yanaşı, real şəxslərin həcvinə də rast gəlinir.

XIX əsrin məsnəvi ədəbiyyatında ictimai eyiblərin alleqorik tərzdə ifadəsi də müşahidə edilir. Məlumdur ki, alleqoriya əsrlər boyu müəllifin tənqidi və satirik görüşlərini insanlara çatdırmağın ən münasib üsulu olmuşdur. Q.Zakir, S.Ə.Şirvani, M.H.Qarabaği, H.Qaradaği və b. öz təmsillərində daha çox ziddiyyətləri və həyat həqiqətlərini ezopvari üsulla xalqın ictimai şüuruna çatdırırdılar.

Q.Zakirin "Sədaqətli dostlar haqqında" şeirində dostluq, həmrəylik təbliğ edilirsə, "Xain yoldaşlar haqqında", "Qurd çaqqal və şir", "Tülkü və şir", "Tülkü və qurd" təmsillərində isə ictimai eyiblər tənqid edilir, şair sonda qalib gələn heyvanların timsalında xalqın mənafeyini müdafiə edir. S.Ə.Şirvani dövrün qlobal məsələləri üzərində köklənmiş "Aslan və iki öküz", "Eşşək və arılar", "Dəvə və balası" və s. təmsil-məsnəvilərində cəmiyyətdəki

neqativ hadisə və sosial problemlərə olan tənqidi münasibətini cəsarətlə ifadə etmişdir.

M.H.Qarabağinin təmsilləri də eyni mahiyyət daşımaqdadır. Onun tənqidi məsnəvilərində Zakirin ədəbi təsiri hiss olunsa da, sənətkarlıq xüsusiyyətlərinə görə bu şeirlər Zakir təmsillərinin səviyyəsinə çata bilmir. Şairin təmsilləri "Kəlilə və Dimnə"dən və İ.A.Krılov yaradıcılığından iqtibas edilmişdir.

Beləliklə, XIX əsrdə insanlara xas nöqsan və eyiblərin şəxsləndirilməsində və tənqidi-satirik şeirlərin yazılmasında məsnəvi ən optimal şeir forması kimi diqqəti cəlb edir.

İkinci fəslin **"XIX əsr poemalarının ideya-məzmun xüsusiyyətləri"** adlı ikinci paraqrafı dövrün anadilli poemalarından bəhs edir.

XIX əsrin əvvəllərində anadilli məsnəviyə müraciət əsrin ikinci yarısına nisbətən azdır. Bu dövrdə təriqət şeirinin qüdrətli nümayəndəsi Seyid Mir Həmzə Nigarinin dini-fəlsəfi əsərləri - Çaynamə", "Nigarnamə" və "Mənaqib" adlı məsnəviləri diqqəti cəlb edir.

"Nigarnamə" simvolik şəkildə yazılmış dini-sufi mahiyyətli eşq məsnəvisidir. Bütün təsəvvüf şairləri kimi, Nigarinin də yaradıcılığında ilahi eşq, dini-irfani ideyalar konseptual predmetə çevrilir. "Çaynamə" məsnəvisində isə şair çay dəstgahı elementləri vasitəsilə fəlsəfi-irfani görüşlərini alleqorik tərzdə ifadə edir.

Dövrün digər məsnəvi-poema müəllifi M.İ.Nakam sələfi Nizami kimi "Xəmsə" yaratmaq fikrində olmuş, lakin cəmi üç poema -"Dastani-Məcnun və Leyli", "Fərhad və Şirin" və "Gəncineyi-ədəb" məsnəvilərini qələmə ala bilmişdir. Bu əsərlər Nizaminin "Leyli və Məcnun", "Xosrov və Şirin" və "Sirlər xəzinəsi" əsərlərinə nəzirədir. Nakamın poemaları fars və ərəb mənşəli qəliz tərkiblərlə zəngin olsa da, anadilli məsnəvinin inkişafında özünəməxsus rol oynamışdır.

Göründüyü kimi, XII əsrdən – Nizaminin "Xəmsə"si ilə şöhrət tapıb müxtəlif dövrlərdə zəngin estetik tələblərə uyğun inkişaf etmiş klassik məsnəviçilik ənənəsi XIX əsrdə xeyli dərəcədə zəifləmiş,

nəzirəçilik bu dövrdə sanki dəbdən düşmüşdür[13]. Bu dövrün mühüm və tarixi hadisələri yeni janrların yazılıb-yayılmasına şərait yaratmış, məsnəvi XIX yüzilliyin ən ehtiyac duyulan mövzularının əsas ifadə şəkli kimi öz mövqeyini möhkəmləndirmişdir.

İkinci fəslin "**XIX əsr poeziyasında mənzum hekayə və müxtəlif mövzulu məsnəvilər**" adlı üçüncü paraqrafında müxtəlif şairlərin dini-fəlsəfi, nəsihətamiz və aşiqanə mövzuda məsnəviləri və mənzum hekayələri təhlilə cəlb edilir.

Tədqiqat zamanı aydın olur ki, XIX əsr ədəbiyyatında məsnəvi şəkli satirik və alleqorik əsərlərlə yanaşı, poemaların, mənzum hekayə və ibrətamiz və didaktik nəsihətlərin, mərsiyələrin, kiçik həcmli lirik şeirlərin ən çox müraciət olunan ifadə forması olmuşdur.

S.Ə.Şirvaninin "Rəbiül-ətfal" məsnəvi toplusuna şairin öyüd və mənzum hekayələri də daxil edilmişdir ki, burada əxlaqi-didaktik fikirlər, elmə və təhsilə çağırış və bir sıra insan mənəviyyatını zənginləşdirən bəşəri keyfiyyətlər təbliğ olunur. Hekayələrin əsas hissəsini isə Seyid Əzim Azərbaycan xalq nağıllarından, müxtəlif rəvayət və lətifələrdən istifadə yolu ilə yazmışdır.

Klassik Şərq üslubunda yazılmış məsnəvilərə M.İ.Qasirin yaradıcılığında da rast gəlirik. Orta əsrlərdə rast gəlinən nət və minacat mövzularına Qasir də müraciət edərək, şeirlərində Allah və peyğəmbərlərin adlarını çəkərək, onlardan hörmətlə bəhs edir. Məhəbbət lirikasında isə Qasir klassiklərin yolunu davam etdirir, eşq məfhumuna insanı mənəvi cəhətdən kamilləşdirən bir vasitə kimi yanaşır. Qasirin "Eşitmişəm qalada..." məsnəvisinin mövzusu əsrlər boyu Azərbaycan xalqı üçün aktuallıq kəsb edən problemə həsr olunmuşdur. Çəpər çəkərkən erməni qəssab Abramla gürcü çəkməçi Girkor arasında torpaq davası düşür. Hər ikisi bir-birini təhqir edir, əlbəyaxa olur, lakin kəndlilərin danlaq və qınağından sonra barışıb qucaqlaşırlar. Abram Girkora günahkar olduğunu söyləyib üzr istəyir və çəpəri çəkməsinə icazə verir:

*Yazıq Girkor bu sözü doğru qanıb,*

---

[13] "Xəmsə" mövzularının XIX əsr anadilli Azərbaycan poeziyasına transformasiyası // – Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi Xəbərləri, Sosial və humanitar elmlər bölməsi, – 2025. – c.21. № 1, – s. 43

*Abram ağanın sözünə inanıb.*
*Abram deyib indi çəpər çəkginən,*
*Hər nə ürəyin istəyir əkginən.*[14]

Girkor Abramın sözlərinə inanır və Abramın əsl məqsədini başa düşmür. Hiyləgər Abram isə arxadan Girkora yaxınlaşır və bıçaqla onun qulağına vuraraq qonşusunu ömürlük kar edir.

Məsnəvinin sonunda müəllif Girkora olan rəğbətini aydın şəkildə ifadə edərək yazır:

*Çox ürəyim yanır mənim Girkora,*
*Hər kəs onu incidə bundan sora.*
*Görsün onu mən nə cürə bəzərəm,*
*Qələm ilə bel-buxunun əzərəm.* [15]

Məsnəvidəki əhvalat müasir dövr Azərbaycan xalqının ən qlobal problemini əks etdirir. Şeirdə uzun illər birlikdə duz-çörək kəsdiyi qonşusunun üzünə gülərək arxadan ona zərbə endirən ikiüzlü və mənfur erməni xisləti parlaq şəkildə təsvir edilmişdir.

XIX əsrin məşhur şairi, "Məclisi-fəramuşan" ədəbi məclisinin fəal üzvü H.Qaradağinin məsnəviləri pedaqoji məzmunda qələmə alınmışdır. Onun "Məktəbli uşaqlara", "Saniyədən əsrə", "İlin fəsilləri", "Yaz", "Yay", "Payız", "Qış" şeirləri öyrədici xarakter daşıyırsa, "On yeddi dəvənin bölgüsü", "Üç küplü" məsnəviləri məktəblilərdə ilkin riyazi və məntiqi bilikləri formalaşdırmaq məqsədilə yazılmışdır.

Dərsliklərə ehtiyacın hökm sürdüyü bir dövrdə yeni tipli dərs vəsaiti tərtib etmək missiyasını üzərinə götürən şairlərdən biri də M.Ə.Növrəsdir. Şairin "Pəndi-ətfal" adlı şeirlər toplusundan uzun müddət dərslik kimi istifadə olunmuşdur. O, öyüd-məsnəvilərində gənc nəsli elm öyrənməyə, zərərli vərdişlərdən uzaq olmağa səsləyir.

*Meyə meyl etmə, ey gözüm saqi,*
*Ləzzəti eyş çün deyil baqi.*
*Xeyr gəlməz qumardan əsla,*

---

[14] Axundzadə, Mirzə İsmayıl Qasir – 210: [elektron resurs] / M.İ.Qasir (Axundzadə), tərt.ed. T.İ.Axundov. – Bakı: – 2015. – s. 305

[15] Axundzadə, Mirzə İsmayıl Qasir – 210: [elektron resurs] / M.İ.Qasir (Axundzadə), tərt.ed. T.İ.Axundov. – Bakı: – 2015. – s. 306

*Nücəbani edər həqiqi – gəda.*[16]

Növrəs də müasiri S.Ə.Şirvani kimi öz məsnəvilərində diqqəti elm və təhsilin vacibliyinə yönəldir, gənclərə insanın mənəvi dünyasını zənginləşdirən keyfiyyətlər aşılayır. O, gənc nəsli pis vərdişlərdən, qeyri-insani əməllərdən uzaq durmağa səsləyir. Onun məsnəvilərinin hər biri öz dövrü üçün pedaqoji və ciddi tərbiyəvi əhəmiyyətə malikdir.

Qarabağ ədəbi mühitinin istedadlı şairlərindən biri olan Məmo bəy Məmai öz məsnəvilərini klassik Şərq poeziyasının üslub və ənənələri əsasında yazmışdır. Onun bədii irsində dünyəvi məhəbbət mövzusu üstünlük təşkil edir. Şair şeirlərində real məhəbbəti tərənnüm edir, lirik "mən"in eşq duyğularını, hicran yanğısını, vusala çatmaq arzusunu real və bədii-estetik boyalarla təsvir edərək məşuqəyə olan heyranlığını bildirir:

*Könlüm açılır fəsahətindən,*
*Can qüvvət tapır məlahətindən.*[17]

Məmainin mövzu etibarilə zəngin, bəşəri duyğuları təbii ifadə etmək nöqteyi-nəzərindən təkrarsız məsnəviləri onun incə ruhlu şair olmasını təsdiq edir.[18]

XIX əsr Azərbaycan anadilli məsnəvilərinin geniş yayılmasında mərsiyələrin də xüsusi rolu olmuşdur. Mərsiyə müəllifləri rus hökümətinin Kərbəla müsibətini adi tarixi bir hadisə hesab etməsi, hər il qətliam şəhidlərinin – xüsusilə, imam Hüseynin şərəfinə baş yarıb, sinə döyərək məhərrəmlik təziyələrinin keçirilməsinə qadağa qoyması ilə barışmamış, öz şeirlərində İmam Hüseyn və onun silahdaşlarının ölümünə təəssüf hisslərini ifadə etmişlər. Rus höküməti ədəbiyyatı siyasətlə qarışdıraraq mərsiyə və

---

[16] Növrəs, M.Ə. Şeirlər / M.Ə.Növrəs, tərt.ed. Ş.Cəmşidov, N.Növrəsli. – Bakı: Yazıçı, – 1985. – s. 60

[17] Məmai, M.Ə. Şeirlər /M.Ə.Məmai, tərt. ed. S.Cabbarlı. – Bakı: Elm və təhsil, – 2016. – s.144

[18] İsmayılova, Ə.Ş. Məmo bəy Məmai poeziyasında multikultural dəyərlər // Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu, Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, – 4-5 dekabr, – 2018. – s.243.

məqtəlləri mürtəce ideologiyanın qalığı hesab etmiş, onların tədqiqinə yetərincə imkan verməmişdir. Lakin bu mövzu xalqın təfəkküründən silinməmiş, Q.Zakir, A.Bakıxanov, X.Natəvan, H.N.Naxçıvani, S.Ə.Şirvani və başqa şairlərin yaradıcılıqlarında yeni mahiyyət qazanmağa başlamışdır. Bu şeirlər daha çox klassik şeirin qəsidə, müstəzad, müxəmməs, mürəbbe janrlarında qələmə alınsa da, "Əhli-beyt"in qadın üzvlərinin dilindən yazılmış əfradların əksəriyyəti məsnəvi şəklindədir. A.Bakıxanov, M.B.Nadim, H.N.Naxçıvani və b. şairlərin yaradıcılıqlarında maraqlı əfrad nümunələrinə rast gəlirik.

Kərbəla döyüşündən 14 əsr keçməsinə baxmayaraq, müasir dövrdə də mərsiyə, xüsusən məqtəl şeirləri öz aktuallığını saxlayır. Belə şeirlər hər il məhərrəm ayı təziyələrində, Vətən uğrunda həlak olmuş şəhidlərin yas və anım məclislərində oxunub-yayılmaqdadır.

Beləliklə, 8 əsrdən bəri davam edən məsnəviçilik ənənəsi XIX yüzilin şairləri tərəfindən uğurla davam etdirilmiş, yeni mütərəqqi ideyalı əsərlərin də əsas poetik forması kimi öz aktuallığını qoruyub saxlamışdır.

XIX əsrdə Şimali Azərbaycan ədəbiyyatında anadilli məsnəvilərin mövqeyi, mövzu dairəsi və ideya-bədii xüsusiyyətləri, XIX əsr Azərbaycan epik şeirinin bəzi xüsusiyyətləri iddiaçının məqalə və məruzələrində geniş şəkildə öz əksini tapmışdır.

Dissertasiyanın **"XIX əsr Cənubi Azərbaycan ədəbiyyatının anadilli məsnəviləri"** adlı üçüncü fəsli üç paraqrafdan ibarətdir. Birinci paraqraf **"Dövrün ədəbi prosesində məsnəvinin mövqeyi. Təmsil və satirik məsnəvilər"** adlanır.

XIX əsrin ortalarında Güney Azərbaycan şairləri və onların xalqımızın şüur və təfəkküründə, mənəvi-əxlaqi tərəqqisində, bədii və ictimai fikir tarixində silinməz izlər yaradan əsərləri Cənubi Azərbaycan ədəbiyyatı məfhumunun meydana gəlməsinə səbəb oldu.

Cənubi Azərbaycanda yaranan anadilli məsnəvilər XIX əsrin son yarısında ölkədəki vəziyyəti, müəllifin ictimai-siyasi mühitə münasibətini aydınlaşdırmağa kömək edir. M.M.Şükuhinin avtobioqrafik səciyyəli məsnəvilərində mühitin eybəcərliklərinə qarşı etiraz, şəriət adından sui-istifadə edib avam insanların başına oyun

açan fırıldaqçıların ifşası özünəməxsus tərzdə öz əksini tapır, İran şah rejimi və onun istismarçı siyasəti tənqid olunur.

Cənubi Azərbaycan şairi M.Xalxalinin "Sələbiyyə" məsnəvisi dövrünün ictimai problemlərini özündə əks etdirən alleqorik əsərdir. 1893-cü ildə yazılmış məsnəvi hələ şairin sağlığında çap edilərək öz layiqli qiymətini almış, bədii dəyərini indiyə qədər qoruyub saxlamışdır. "Sələbiyyə"də sosial problemlər, fəlsəfi fikirlər, milli adət-ənənələr, mental dəyərlər öz inikasını tapmış, müəllif zəmanəsinin aktual problemlərini - insanın öz yurdunda səfil həyat sürməsi, qürbətə üz tutması, zalımların "həyat meydanında at oynatması" və başqa məsələləri önə çəkmişdir.

İran rejimi altında yaşayıb-yaratmaqlarına baxmayaraq, XIX əsr şairləri öz məsnəvilərində milli mentalitetə xas adət-ənənələri, canlı dil xüsusiyyətlərini qoruyub saxlamağa çalışmışdır. Milli-mənəvi kökə bağlılıq, nəsihətçilik ideyalarını özlərindən sonrakı nəsilə aşılamaq "Sələbiyyə"nin başlıca qayəsini təşkil edir.

Üçüncü fəslin ikinci paraqrafı **"XIX əsr Cənubi Azərbaycan ədəbiyyatında poema və onun ideya-estetik xüsusiyyətləri"** adlanır. Məlumdur ki, Şərq və eləcə də Azərbaycan ədəbiyyatında XII əsrdən etibarən "Xəmsə" mövzularına, xüsusən "Leyli və Məcnun" süjetinə müraciət ədəbi ənənəyə çevrilmişdir. Yazılmış nəzirələrdə əsas süjet xətti orijinalda olduğu kimi saxlanılsa da, onların hər biri fərdi keyfiyyətlərinə görə orijinal sənət nümunəsidir.

XIX əsrin əvvəllərində klassik nəzirəçilik ənənələrindən bəhrələnən şairlərdən biri də Cənubi Azərbaycanda yaşayıb-yaradan Əndəlib Qaracadağidir. Şairin yeganə məsnəvisi "Qisseyi-Leyli və Məcnun" adlanır. Əsər müəllifin öz sözləri ilə desək, "Leyli və Məcnun"səyağı" yazılmış lirik poemadır. Məsnəvinin adı şərtidir və o, klassik "Leyli və Məcnun"lardan kəskin şəkildə fərqlənir. Burada əsas obrazlar Leyli və Məcnun deyil, Aşiq və Məşuqədir. Lirik "mən" özünü Məcnuna, sevgilisini isə Leyliyə bənzətdiyi üçün əsər belə adlanır. "*Poemada əvvəldən axıra qədər müəllifin saf məhəbbəti və məhəbbətindəki uğursuzluğundan doğan şikayətləri təsvir olunur.*

*Bu xüsusiyyət əsərə dərin bir lirizm gətirir və onun orijinallığını qüvvətləndirir".*[19]

Bu məsnəvi ilə klassik "Leyli və Məcnun" poemaları arasındakı oxşar motivlər aşiqin dilindən verilmiş şeirlərdə - müxəmməslərdə özünü göstərir. Məlumdur ki, XIX əsrdə müxəmməs ədəbi janrlar iyerarxiyasında ən yüksək yerlərdən birini tutmuş, özünün inkişaf zirvəsinə çatmışdır. Lakin aşiqanə məsnəvidə bu janra müraciət Ə.Qaracadağinin novatorluğunu şərtləndirən cəhətlərdən biridir.

M.M.Şükuhinin "Münazireyi-Əqlü Eşq" adlı alleqorik poeması klassik, qismən isə folklor ənənələrinin təsiri ilə yazılmışdır. M.Müsəddiqin fikrincə, əsər Füzulinin "Bəngü-Badə", bəzi xüsusiyyətlərinə görə "Leyli və Məcnun" və Ə.Təbrizinin "Mehr və Müştəri" məsnəvisini xatırladır.[20] Poema yersiz müharibələr əleyhinə yazılmış, lakin burada məhəbbətlə bağlı səhnələrə də yer verilmişdir. Məsnəvidəki alleqorik obrazlar insanın daxili aləmini, mənəviyyatını təyin edən bir sıra xüsusiyyətlərə malikdir. Əsərin əsas süjet xəttini Ruh padşahın oğulları – Əql və Eşq arasında olan konflikt təşkil edir. Hər iki qardaşın xarakteri öz adına tam uyğundur. Əsərboyu davam edən ziddiyyət Eşqin qələbəsi ilə bitir.

"Münazireyi - Əqlü Eşq" poeması realist xarakter daşıyır. Müəllif əsərdə ərəb-fars tərkibli ifadələrə çox yer vermişdir. Bu baxımdan, yazılma tarixləri arasında 3 əsr olmasına baxmayaraq, Füzulinin "Bəngü-Badə" poemasının dili daha anlaşıqlıdır.

Beləliklə, dövrün poemalarının tədqiqi zamanı məlum olur ki, XIX əsrdə Cənubi Azərbaycan ədəbiyyatının məsnəvi - poemalarında klassik ənənə daha çox hakimdir və burada orijinallıqdan kənar ideya və fikirlərə də müəyyən qədər rast gəlinir.

Üçüncü fəslin üçüncü paraqrafı **"XIX əsr Cənubi Azərbaycan poeziyasında müxtəlif məzmunlu məsnəvilər"** adlanır. Qeyd edək ki, XIX əsrdə cənub ədəbiyyatında xeyli sayda dini-irfani, fəlsəfi

---

[19] Qasımzadə, F.S. XIX əsr Azərbaycan ədəbiyyatı / F.S.Qasımzadə. – Bakı: Elm və təhsil, – 2019. – s.88

[20] Müsəddiq, M.H. Mirzə Mehdi Şükuhi: Həyat və yaradıcılığı / M.H.Müsəddiq. – Bakı: Yazıçı, s.73

şeirlərlə yanaşı, məqtəllər də məsnəvidə yazılmışdır.

Əsasən dini şeirlər müəllifi M.X.Acizin məsnəviləri onun təsəvvüf və fəlsəfi-irfani görüşlərini əks etdirir. Şair "Bismillahir-rəhmanir-rəhim" ifadəsi ilə başlayan məsnəvisində Allahın qüdrətini, dini lider və övliyaları poetik şəkildə tərənnüm edir:

*Küll məxluqatı icad eyləyən,*
*Masivanı cümlə ərşad eyləyən.*
*Lütf ilən məbus edən peyğəmbəri,*
*Hadiye din rəhnumə və rəhbəri.* [21]

XIX əsrdə məsnəvi müəlliflərindən biri də Gəncəli Cavad xanın qardaşı Fəthəli bəy Hali Gəncəvidir. Şairin şeirləri arasında 11 məsnəvisi vardır. Bu şeirlərdə konkret insanlara və naməlum hadisələrə işarə edilir. Hali yaradıcılığı geniş olsa da, onun məsnəvilərini o qədər də uğurlu hesab etmək olmaz. Əksər beytlərdə rabitəsiz fikirlərə yer verildiyi üçün onları təhlil etmək çətindir, bəzən şairin çatdırmaq istədiyi fikir anlaşılmır. Məsnəvilərin dili də olduqca qəlizdir. Cənub şairlərinin şirin ləhcəsinə və rəvan üslubuna Hali poeziyasında rast gəlinmir. Buna baxmayaraq, şairin dövrün siyasi və ictimai hadisələrini əks etdirən və daha məzmunlu olan digər şeirlərinin ədəbiyyatşünaslıqda təhlil və tədqiqinə ehtiyac vardır.

XIX əsrin digər məsnəvi müəllifi M.M.Hidəcidir. Onun "Divane-əşare türki həkim Molla Məhəmməd Hidəci" adlı divanına digər şeirləri ilə yanaşı, 12 məsnəvisi də daxil edilmişdir. Məsnəvilərində əsl təsəvvüf şairi kimi çıxış edən Hidəci, bütün varlığı ilə Allaha bağlıdır. Onun məsnəvilərində Allaha müraciət, yaradana sığınmaq, onun sonsuz mərhəmətinə güvənmək və s. hisslər xüsusi yer tutur. Şeirlərin birində şair deyir:

*Mənim halım Allah, sənə bəllidir,*
*Qəmim beş dögül, on dögül, əllidir.*
*Bəyənmə, gedim özgəyə əl açam,*
*Bu çağımda özgə dalıyca qaçam.*

---

[21] دیوان اشعار محمد خلیفه عاجز گرمهرودی (معروف به عاجز سرابی). مقدمه تصحیح و تحشیه: دکتر حسین محمدزاده صدیق. تهران، شمارگان. ۱۳۸۹. s.100

*Sənin bəndənəm yaxşıyam, ya yaman*
*Kimim var, əgər sən qapından qovan?* [22]

Digər cənublu şair M.Xalxalinin əlimizdə olan kiçik məsnəviləri onun dini meyillərə sahib olduğunu göstərməkdədir. Belə ki, şairin 2-si 3, 1-i 6, 1-i isə 36 beytdən ibarət məsnəviləri onun irfani və dünyəvi eşqlə bağlı düşüncələrini özündə cəmləşdirir. Onun 36 beytlik məsnəvisi isə klassik eşq məsnəvisidir. Burada şair sevgilisini tərənnüm edir. Onun fikrincə, gözəlliyi ilə insanı valeh edən məşuqənin eşqi hətta kafirin ürəyinə düşsə belə, o, əqidəsindən dönəcəkdir:

*Basıb könlümü əzsə tüğyan edər,*
*Deyərsən ki, kafir müsəlman edər.*[23]

Xalxalinin məsnəvilərinin dili anlaşıqlıdır. Şair xəlqi koloritli söz və ifadələrdən yüksək sənətkarlıqla bəhrələnərək poetik mətnin gözəl örnəklərini yaradır. Dil-üslub xüsusiyyətləri, şirin şivəsi, bədii məcaz sistemi və digər funksional cəhətlərinə görə bu şeirlər müəllifin müasiri Məhəmməd Hidəcinin məsnəviləri ilə səsləşir.

M.M.Şükuhinin “Şükuhinin vəsfi-halı” adlı məsnəvisi şairin fələk və zəmanədən olan şikayətindən, ötüb keçən gəncliyi üçün göz yaşı axıtmasından bəhs edir. Əsər qocalığın təsviri ilə başlayır. Şair cavanlığını təəssüf hissi ilə xatırlayır, saçının ağarmasının, nəfəsinin zorla gedib-gəlməsinin səbəbini fələyin amansızlığında görür:

*Cavanlıq gedib bilmədim qədrini,*
*Necə görmədim, arizi bədrini.*[24]

Şeir həm də ictimai-siyasi səciyyə daşıyır. Şükuhi tez qocalmasının digər səbəbini içərisində olduğu səfalət, bir qarın çörək üçün keçirdiyi yoxsul yaşayış tərzi ilə əlaqələndirir. Şeir poetik məzmununa görə N.Gəncəvinin “Qocalıq” qəsidəsini xatırladır.

Cənubi Azərbaycan ədəbiyyatında məsnəvi mərsiyə və məqtəl şeirinin işlək ifadə forması kimi də diqqəti cəlb edir.

---

[22] دیوان اشعار ترکی حکیم ملا محمد حیدجی. مقدمه تصحیح و تحشیه: دکتر حسن محمدزاده صدیق کرج: ۸۸۳۱: s.240

[23] Xalxali, M.B. Sələbiyyə və başqa şeirlər / M.B.Xalxali, tərt. ed. Fərhəng Xak Nejad. Tehran: – 1379. s. 44

[24] Cənub ulduzları / tərt.ed. Ə.Hüseyni, Y.Piriyev.– Bakı: Yazıçı, – 1984. –s. 161

Ə.Raci dövrünün ən qüdrətli mərsiyə şairidir. S.Hüseyn "Azərbaycan mərsiyə ədəbiyyatı və Əbülhəsən Racinin poetik dünyası" adlı monoqrafiyasında şairin yaradıcılığını tədqiqata cəlb etmişdir. Racinin əsərləri sırasında onun cinas qafiyəli bir məsnəvisi diqqəti cəlb edir. S.Hüseyn, həmçinin F.Köçərli, N.Rizvan və H.Abıyev həmin şeiri təcnis adlandırmışlar.[25] Lakin məlumdur ki, təcnis aşıq şeir şəkli olan qoşmanın bir növüdür və klassik ədəbiyyatda cinaslardan istifadə Raci yaradıcılığında ilk hadisə deyildir. Qeyd edək ki, XIV əsrdə İ.Nəsiminin cinas sözlər üzərində qurulmuş qəzəlləri tədqiqatçılar tərəfindən təcnis yox, məhz qəzəl adı ilə təhlilə cəlb olunmuşdur.[26]

Həmin məsnəvidə Raci məhəbbəti tərənnüm edərək, məşuqədən şikayət edir:

*Gəl ey aşiqin atəşə yanduran,*
*Məni yanə-yanə qoyub yan duran.*
*Rəvadur qalımmən şəbi-tar ilə,*
*Keçirt sübhə tək sən şəbi-tar ilə.*[27]

Hüseyn Dəxil Marağayi də öz məsnəvilərində Kərbəla faciəsinin dəhşətli mənzərəsini, "Əhli-beyt" qadınlarının ah-naləsini ürəkağrısı ilə qələmə almış, ömrü boyu bu qanlı hadisəni təsvir edərək, Hüseynə "ağı deməkdən" usanmamışdır:

*Bəs ki, cismindən olub al qan rəvan,*
*Kuhü səhranı edib dəryayi – qan.*[28]

Mərsiyənin digər məşhur nümayəndəsi Mirzə Taği Qumridir. Onun bir məsnəvisində Kərbəla faciəsi orijinal səciyyə daşıyır. Şair Hüseynin şəhadətinə təəssüflənərək, ah-fəğanını dilə gətirir. O,

---

[25] Hüseyn, S.B. Azərbaycan mərsiyə ədəbiyyatı və Əbülhəsən Racinin poetik dünyası / S.B.Hüseyn. – Bakı: Ekoprint, – 2015. – s.113

[26] Nəsimi İ.M. Seçilmiş əsərləri: [iki cilddə] / İ.M.Nəsimi, tərt. ed. H.Araslı. – Bakı: Lidet-nəşriyyat, – c. 1. – 2004. – s.43

[27] Raci, H.Ə. Seçilmiş əsərləri / H.Ə.Raci, tərt. ed. Hafiz Abıyev. – Bakı: Sabah, – 1992. – s.249

[28] Dahilərin göz yaşı: mərsiyələr / tərt. ed. M.İ.Əliyev, A.Ramazanov. – Bakı: Elm, – 1990. – 110 s. s.402

növhəgər olması ilə fəxr edir və bu istedadına görə Allaha şükranlıq hissini dönə-dönə vurğulayır:

*Həzar şükr yetişdim muradə aləmdə,*
*Həmişə növhəgər oldum bu bəzmi-matəmdə* [29].

Digər mərsiyə müəllifi Məhəmməd Əmin Dilsuzun üç məqtəli məsnəvi şəklindədir. Şair Kərbəla hadisələrini təsvir edərkən emosional beytlər yaratmağa müvəffəq olmuşdur:

*Soldurub gülşəninün güllərini,*
*Gətdilər naləyə bülbüllərini.*
*Öldürüb nazlı Əli Əkbərini,*
*Oxlıyıb həlqi-Əli Əsğərini.*[30]

Beləliklə, tədqiqatdan aydın olur ki, cənub şairlərinin poetik təfəkküründə milli mentalitet və islam dəyərləri özünü daha çox büruzə verir. Müasir dövrdə geniş şəkildə tədqiqinə ehtiyac duyulan mərsiyələr məsnəvi şeirinin uğurlu örnəkləri kimi diqqəti cəlb edir.

Tədqiqatın **"Nəticə"** hissəsində bir sıra konkret qənaətlərə gəlinmişdir ki, onları aşağıdakı kimi ümumiləşdirmək olar:

- Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatında əsasən sabit, ənənəvi mövzuları əks etdirən məsnəvi klassik şeirin geniş yayılmış şəkillərindən biri olmuşdur. XIX əsrdə bu klassik forma mövzu baxımından realist səciyyə daşıyaraq şaxələnmiş, həcminə görə nəzərə çarpacaq dərəcədə yığcamlaşmış və müxtəlif janrların yazılmasında ən çox müraciət olunan nəzm formasına çevrilmişdir.
- Məsnəvinin tədqiqi tarixi çox qədimdir. Azərbaycan ədəbiyyatşünaslığında bu sahədə xeyli araşdırmalar aparılmış, məqalə, monoqrafiya və dissertasiyalar yazılmış, XIX əsrdə yaşamış və yaradıcılığı tədqiqata cəlb olunmamış bir sıra şairlərin bədii irsi üzə çıxarılıb nəşr etdirilmişdir.
- XIX yüzil Azərbaycan ədəbiyyatı tarixi bir sıra səciyyəvi xüsusiyyətləri ilə ədəbiyyat tariximizin orijinal mərhələsidir. Bu

---

[29] Köçərli, F.Q. Azərbaycan ədəbiyyatı, [2 cilddə] / F.Q.Köçərli, R.Qənbərqızı. – Bakı: Avrasiya Press, – c.2. – 2005. – s. 338

[30] Dilsuz, M.Ə. Seçilmiş əsərləri (qəsidələr, mərsiyələr, növhələr, qəzəllər, müstəzadlar, tərcibəndlər və s./tərt. ed. M.Qarazadə. – Bakı: Çıraq, – 2006. –s.132.

dövrdə mövzu, ideya və məzmun, janr və poetik xüsusiyyətlərinə görə diqqəti cəlb edən maraqlı məsnəvi örnəkləri meydana gəlmişdir.

- Dövrün məsnəviləri mövzu, süjet problematikasına görə folklor və klassik ənənə ilə vəhdət təşkil edir; nəzirəçilik klassik ədəbi ənənə kimi öz aktuallığını qoruyub saxlayır.

- XIX əsrdə Azərbaycan rus imperiyasının müstəmləkə siyasətinin boyunduruğu altında olmasına baxmayaraq, ədəbiyyatda milli mental ideyaları müdafiə edən əxlaqi-didaktik məzmunlu məsnəvilər yaranmış, bəzi sənətkarlar bədii mütərcimlik fəaliyyətlərini inkişaf etdirərək, məsnəvi ədəbiyyatını tərcümə və iqtibas edilmiş mövzular hesabına zənginləşdirmişlər.

- Ədəbiyyatda ictimai məzmun güclənmiş, satirik şeirin inkişafında xüsusi mövqeyə malik məsnəvi-həcvlər, tənqidi-məzmunlu məktublar, cəmiyyətin inkişafına mane olan, ictimai bəlaları, köhnə əxlaq normalarını tənqid edən şeirlər yazılmışdır.

- Yazılmış təmsillərdə və bəzi poemalarda alleqoriyaya müraciət edilir, şəxsləndirmə müxtəlif bədii vasitələrlə - kinayə, metafora, surətlərin təzadı və s. ilə öz təsdiqini tapır. Təmsil yaradıcılığında tipik - ikisurətli təmsil üstünlük təşkil edir və bu əsərlərin sonluğu ənənəvi olaraq əxlaqi-tərbiyəvi səciyyə daşıyır.

- Maarifçiliyin intişarı ilə əlaqədar olaraq pedaqoji prosesdə ehtiyac duyulan öyrədici şeirlər meydana gəlir, əxlaqi-didaktik fikirlərin təsvir və tərənnümü bəzi məsnəvilərin prioritet mövzusuna çevrilməklə yanaşı, multikultural elementlərlə zəngin əsərlər ədəbi-mədəni əlaqələrin inkişafında əhəmiyyətli rol oynayır.

- XIX əsrin lirik və epik məsnəvilərində müxtəlif poetik fiqurlardan, məcazlardan sənətkarlıqla bəhrələnmə müşahidə olunur.

- Ədəbi-bədii düşüncə müstəvisində yeknəsək mövzularla Şimaldan geridə qalan Cənub ədəbiyyatının anadilli məsnəvilərində dini ideyalar qabarıq tərzdə nəzərə çarpır, Kərbəla mövzusundan mərsiyə və məqtəllərin geniş yayılması müşahidə olunur.

- XIX əsr Cənubi Azərbaycan ədəbiyyatı məsnəvilərinin əksəriyyəti folklor və klassik ənənələri özündə ehtiva edir.

- Araşdırılan cənub şairlərinin yaradıcılığında əxlaqi-fəlsəfi fikirlər, sufi ideyaların təbliği, Quran ayə və təfsirlərindən

bəhrələnmə, dini rəvayət və hədislər məsnəvinin əsas mövzusu kimi diqqəti cəlb edir.

- İranda baş verən ictimai-siyasi hadisələrin, mövcud ziddiyyət və çatışmazlıqların, İran məişətinin alleqorik təsviri Cənub məsnəvi poeziyasının əsas mövzusu kimi nəzərə çarpır.

Beləliklə, təhlil edilmiş konkret nümunələrə əsasən söyləmək mümkündür ki, XIX əsr Azərbaycan anadilli məsnəviləri orijinal keyfiyyət və məziyyətlərinə görə dünya ədəbiyyatı inciləri sırasında dayana biləcək əsərlər meydana gətirmişdir. Dövrün anadilli məsnəvilərinin böyük əksəriyyətinin geniş və ətraflı tədqiqi çağdaş ədəbiyyatşünaslığımızda həllini gözləyən prioritet məsələlərdəndir.

Dissertasiyada 224 ədəbiyyatdan istifadə edilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Molla Məhəmməd Hidəcinin məsnəviləri // – Bakı: Əlyazmalar yanmır, – 2018. № 2 (7), – s.103-109

2. Məmo bəy Məmai poeziyasında multikultural dəyərlər // Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu, Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, – 4-5 dekabr, – 2018. – s. 242-243

3. Həsənəliağa xan Qaradağinin məsnəvilərinin qaynaqları və ideya-bədii xüsusiyyətləri // – Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi Xəbərləri, Sosial və humanitar elmlər bölməsi, – 2019. – c.15. № 2, – s. 38-42

4. Mirzə Mehdi Şükuhinin məsnəvilərində sosial mühitin tənqidinin forma və üsullari // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, M.Füzuli adına Əlyazmalar İnstitutu, Elmi əsərlər. – 2019. № 2 (9), s. 61-66

5. Məhəmmədbağır Xalxalinin "Şələbiyyə" məsnəvisində milli məişət və koloritin bədii təcəssümü // Elmlərarası inteqrasiya: Linqvodidaktik, linqvokulturoloji və psixolinqvistik aspektlər, – Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, – 19-20 dekabr, – 2019. – 133-136

6. Мультикультурные, общечеловеческие и ментальные ценности в маснави Сеида Азима Ширвани // Современные тенденции языкового образования: опыт, проблемы, перспективы: сборник статей участников II Международной научнопрактической конференции, – Арзамас: – 23 марта 2020 г. – с. 164-167

7. Məhəmməd Xəlifə Acizin anadilli məsnəviləri // Klassik Azərbaycan ədəbiyyatı və incəsənətinin milli özünütəsdiqdə və Mərkəzi Asiyadakı mədəni tərəqqidə yeri, – Bakı: Elm və təhsil, – 2020, s. 41-43

8. Mirzə Baxış Nadimin məsnəvi yaradıcılığı // Azərbaycan əlyazmaları dünya kitabxanalarında, – Bakı-Naxçıvan: Elm və təhsil, – 30 noyabr, – 2020, s.125-127

9. Mirzə Ələsgər Növrəsin "Pəndi-ətfal" əsərinin didaktik və mənəvi-əxlaqi aspektləri // Cəmiyyətə inteqrasiya və sosial adaptasiya: nəzəri və praktik aspektlər, – Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, – 26-27 noyabr, – 2020. s.162-166

10. XIX yüzyil Azerbaycan şairi İsmayil bey Nakâm'in eserlerinde "Hamse" geleneği // – Ankara: Kıbrıs İlim Universitesi. V. Uluslararasi türklerin dünyasi sosyal bilimler sempozyumu bildiriler. –17-18 aralık, – 2020. – s. 65-71

11. Seyid Mirhəmzə Nigarinin məsnəviləri. Türk dillərinin və ədəbiyyatının tədqiqi və tədrisinin aktual problemləri. Beynəlxalq elmi konfrans. – Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, – 20-21 may, – 2021, s.385-387

12. XIX əsr Cənubi Azərbaycan ədəbiyyatında məsnəvi-məqtəllər. V Uluslararasi türklerin dünyasi sosyal bilimler sempozyumu. – 05-08 Ağustos, 2021. s.407-412

13. XIX əsr Azərbaycan məsnəvi yaradicılığında Qasım bəy Zakir təmsillərinin mövqeyi // Orta Doğu və Orta Asya-Kafkaslar Araştırma ve Uygulama Merkezi dergisi Journal of Middle East and Cental Asia – Caucasus research and application center. – Cilt 1,Sayı 2, – 2021. – s. 3-10

14. Azərbaycan ədəbiyyatında məsnəvi janrının təşəkkülü, formalaşması və səciyyəvi xüsusiyyətləri // – İstanbul: Euroasia journal of social sciences & humanities. – Issued in March 25, – 2021, Vol.8, – № 19, – s.143-150

15. Mirzə Həsən Qarabaği məsnəvilərində Qarabağ ictimai mühiti //"Qarabağın tarixi: siyasi, iqtisadi, mədəni aspektlər" beynəlxalq elmi konfransin materialları. – Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, – 17-18 mart, – 2022. – s. 464 – 466

16. Şuşa şairi Məmo bəy Məmainin məsnəvilərində humanist ideyalar //– Bakı: Filologiya məsələləri, – 2022. № 19, s. 234-240

17. Cənubi Azərbaycan şairi Mirzə Mehdi Şükuhinin məsnəvilərində klassik ənənə // Bakı: "Dil və ədəbiyyat" jurnalı, – Iyun avqust. –2022. – № 3 (120), – s. 168-170

18. Azerbaijani distichs in the context of socio-political events of XIX century // Науковый журнал «Вчені записки ТНУ імені В.І.Вернадського. Серія: Філологія. Журналистика» заарестовано Міністерством юстиції України. – Том 33 (72) № 4, – 2022, ст. 132-136

19. Əndəlib Qaracadağinin məsnəvi yaradiciliğinda nəzirəçilik ənənəsi // – Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi Xəbərləri, Sosial və humanitar elmlər bölməsi, – 2023. – c.19. № 1, – s. 37-41

20. Məhəmmədbağır Xalxali yaradıcılığında "Kitabi-Dədə Qorqud" motivləri //"Heydər Əliyev və türk dünyası: İctimai, iqtisadi və mədəni əlaqələr" beynəlxalq elmi konfransin materialları. – Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, – 04-05 may, – 2023. – s. 445-447.

21. XIX əsrin anadilli Azərbaycan ədəbiyyatında təsvir olunmuş erməni xisləti // Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar. II Beynəlxalq elmi konfransın materialları. – Mingəçevir Dövlət Universiteti, 13 dekabr, – 2024, s. 57-59.

22. "Xəmsə" mövzularının XIX əsr anadilli Azərbaycan poeziyasına transformasiyası // – Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi Xəbərləri, Sosial və humanitar elmlər bölməsi, – 2025. – c.21. № 1, – s. 40-44

Dissertasiyanın müdafiəsi 30 iyun 2025-ci il tarixində saat 10:00-da Sumqayıt Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.24 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ5008, Sumqayıt şəhəri, 43cü məhəllə. Sumqayıt Dövlət Universiteti

Dissertasiya ilə Sumqayıt Dövlət Universietinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Disstertasiya və avtoreferatın elektron versiyaları Sumqayıt Dövlət Universitetinin rəsmi saytında (https://sdu.edu.az/az) yerləşdirilmişdir.

Avtoreferat 23 may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.05.2025

Kağızın formatı: 60*84/1/16

Həcm: 42914 işarə sayı

Tiraj: 100